**“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin illik iş planının təsdiq edilməsi haqqında**

“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamının 3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə

**Əmr edirəm:**

1. “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin illik iş planı təsdiq edilsin (əlavə olunur) və bu barədə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına məlumat verilsin.
2. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin “İnformasiya azadlığı ilə bağlı icraat qaydaları” təsdiq edilsin (əlavə olunur).
3. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə illik iş planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədi ilə aşağıdakı tərkibdə komissiya yaradılsın:

| | | |
|---|---|---|
| G. Cavadov | - Nazir müavini | - sədr; |
| R. Məmmədov | - Aparatın rəhbəri | - sədr müavini; |

| | | |
|---|---|---|
| R. Əliyev | - İqtisadiyyat şöbəsinin müdiri | - üzv; |
| İ. Hüseynov | - Kadrlar və sosial siyasət şöbəsinin müdiri | - üzv; |
| R. İbrahimov | - Lisenziya və enerji daşıyıcılarına nəzarət nəzarət şöbəsinin müdiri | - üzv; |
| M. Məmmədov | - Dövlət və beynəlxalq proqramların icrasına nəzarət şöbəsinin müdiri | - üzv; |
| İ. Ağayev | - Hüquqi münasibətlər və metrologiya şöbəsinin müdiri | - üzv; |
| Ə. Süleymanov | - Təhlükəsizlik və səfərbərlik hazırlığı şöbəsinin müdiri | - üzv; |
| F. Bağırov | - Maliyyə-mühasibat şöbəsinin müdiri | - üzv; |
| E. Rzayeva | - Ümumi şöbənin müdiri | - üzv; |
| P. Məmmədov | - Dövlət Enerji Nəzarət İdarəsinin rəisi | - üzv; |
| A. Zeynalov | - Dövlət Qaz Nəzarəti İdarəsinin rəisi | - üzv; |
| R. Şəfaqətov | - Elektron İdarəetmə şöbəsinin müdir müavini | - üzv; |
| A. Məsimli | - Mətbuat katibi | - üzv; |

4. Komissiyaya tapşırılsın:

4.1. "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin illik iş planında nəzərdə tutulan tədbirlərin aidiyyəti olanlar tərəfindən icrasını əlaqələndirsin;

4.2. Komissiya Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planında nəzərdə tutulan işlərin icrası barədə yekun hesabatların hər il yanvarın 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim olunmasını təmin etsin;

5. Dövlət Qaz Nəzarəti İdarəsinin rəisi (A.Zeynalov) və Dövlət Enerji Nəzarəti İdarəsinin rəisi (P.Məmmədov) öz strukturlarında "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. Mətbuat katibi A. Mənsimli və Elektron İdarəetmə şöbəsinin müdir müavini R. Şəfaqətov Nazirliyin informasiya azadlığı üzrə məsul şəxsləri təyin edilsin. Məsul

şəxslər ayda bir dəfə və tələb olunduqda Nazirliyin rəhbərliyinə informasiya azadlığının təmin olunması barədə hesabat təqdim etsinlər.

7. Nazirliyin aparatının struktur bölmələri və strukturuna daxil olan idarələr:

7.1. Öz fəaliyyətlərində "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın müddəalarını rəhbər tutsunlar;

7.2. "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin illik iş planında nəzərdə tutulan tədbirlərin icrası barədə illik hesabatı hər ilin sonunda Komissiyanın sədrinə təqdim etsinlər.

8. Nazirliyin 18 oktyabr 2007-ci il tarixli 03 nömrəli Sərəncamı və 12 oktyabr 2012-ci il tarixli 46 nöməli Əmri ləğv edilsin.

9. Ümumi şöbə bu əmrin surətinin nazirliyin aparatının struktur bölmələrinə və strukturuna daxil olan idarələrə çatdırılmasını təmin etsin.

10. Elektron İdarəetmə şöbəsi bu əmrin nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

11. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Nazir Natiq Əliyev

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin ___ ___________2012-ci il tarixli ____nömrəli əmri ilə təsdiq edilmişdir.

# “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin illik İş Planı

| № | Görüləcək işlər və gözlənilən nəticələr | İcraçı | İcra müddəti |
|---|---|---|---|
| 1. | **İnformasiya əldə edilməsinin asanlaşdırılması** | | |
| | 1.1. Nazirlikdə informasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi, informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi və bu barədə ictimaiyyətin məlumatlandırılması; | Aparatın rəhbəri, Elektron İdarəetmə şöbəsi və Mətbuat katibi | 2012-2014-cü illər |
| | 1.2. İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı treninqlərin keçirilməsi. | Kadrlar və sosial siyasət şöbəsi, informasiya azadlığı üzrə məsul şəxslər | 2012-2014-cü illər |
| 2. | **Nazirliyin fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsi** | | |
| | 2.1. Nazirliyin fəaliyyəti barədə məlumatların mütəmadi, yenilənmiş əsaslarla internet səhifəsində yerləşdirilməsi; | Mətbuat katibi və Elektron İdarəetmə şöbəsi | mütəmadi |
| | 2.2. Nazirliyin fəaliyyəti barədə illik məruzələr tərtib edilməsi və internet səhifəsində açıqlanması; | Aidiyyəti şöbələr, Elektron İdarəetmə şöbəsi | 2012-2015-ci illər |
| | 2.3. Nazirliyin fəaliyyəti barədə mətbuat konfranslarının və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlərin keçirilməsi; | Aidiyyəti şöbələr, Mətbuat katibi | 2012-2015-ci illər |
| | 2.4. Nazirliyin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyasının, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi; | Hüquqi münasibətlər və metrologiya şöbəsi, aidiyyəti şöbələr, Mətbuat katibi | mütəmadi |
| | 2.5. Nazirliyin əhatə etdiyi sahələr üzrə internet portallarının yaradılması. | Elektron İdarəetmə şöbəsi | 2012-2014-cü illər |
| 3. | **Nazirliyin fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi** | | |
| | 3.1. Nazirlik tərəfindən ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması | Aidiyyəti şöbələr, Mətbuat katibi | mütəmadi |

| | | | |
|---|---|---|---|
| | prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi;<br><br>3.2. Nazirlik tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması;<br><br>3.3. İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə edilməsi (vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, müzakirələrin təşkil edilməsi, interaktiv sual-cavab bölmələrinin yaradılması və s.);<br><br>3.4. Nazirlik tərəfindən "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi. | <br><br><br>Aparatın rəhbəri, aidiyyəti şöbələr<br><br><br><br>Elektron İdarəetmə şöbəsi, aidiyyəti şöbələr, Mətbuat katibi<br><br><br><br><br><br><br>Komissiya, Mətbuat katibi | <br><br><br>2012-2013-cü illər<br><br><br><br>mütəmadi<br><br><br><br><br><br><br>mütəmadi |
| 4. | **Elektron xidmətlərin təkmilləşdirilməsi**<br>4.1. Nazirliyin səlahiyyətlərinə uyğun olaraq həyata keçirdiyi elektron xidmətlər barədə ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirməsi;<br><br>4.2. Rüsumların, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi;<br><br>4.3. Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi. | <br>Elektron İdarəetmə şöbəsi, aidiyyəti şöbələr və struktura daxil olan idarələr<br><br><br><br>Elektron İdarəetmə şöbəsi, aidiyyəti şöbələr və struktura daxil olan idarələr<br><br><br><br>Elektron İdarəetmə şöbəsi, aidiyyəti şöbələr və struktura daxil olan idarələr | <br>2013-2015-ci illər<br><br><br><br><br>2013-2014-cü illər<br><br><br><br><br>2013-2014-cü illər |
| 5. | **Açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmənin və əməkdaşlığın həyata keçirilməsi**<br>5.1. Açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri və əhali arasında paylanması;<br><br>5.2. "Açıq Hökumət Tərəfdaşlığı" çərçivəsində öhdəliklərin icrası istiqamətində zəruri tədbirlərin davam etdirilməsi | <br><br><br>Ümumi şöbə, Mətbuat katibi və struktura daxil olan idarələr<br><br>Aidiyyəti şöbələr | <br><br><br>Mütəmadi<br><br><br><br>2012-2015-ci illər |

**ƏLAVƏ 2**

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin ___ ___________2012-ci il tarixli ____nömrəli əmri ilə təsdiq edilmişdir.

# İnformasiya azadlığı ilə bağlı daxili icraat qaydaları

1. Ümumi müddəalar

1.1. İnformasiya azadlığı ilə bağlı icraat qaydaları informasiya açıqlığının təmin edilməsi, hesabatlılığın artırılması və Nazirliyin fəaliyyəti haqqında ictimaiyyətin informasiya əldə etmək hüquqlarının qorunmasına istiqamətlənmişdir.

1.2. Bu qaydalar Sənaye və Energetika Nazirliyinin Aparatının struktur bölmələri və strukturuna daxil olan idarələrdə informasiya azadlığının təmin edilməsi ilə bağlı daxili icraatın "İnformasiya əldə etmək haqqında qanun"a uyğun təşkili işini tənzimləyir.

1.3. İnformasiya azadlığı ilə bağlı daxili icraatın vəzifələri informasiya əldə etmək hüququna malik olan, habelə bunun üçün müraciət etmiş şəxslərin hüquqlarını və azadlıqlarını, onların qanuni mənafelərini qorumaqdan, hər bir müraciəti vaxtında, hərtərəfli, tam və obyektiv surətdə cavablandırmaqdan, Nazirliyin fəaliyyəti ilə bağlı, habelə ictimai maraq doğuran məlumatların mütəmadi olaraq cəmiyyətə çatdırılmasını təmin etməkdən və bu sahə üzrə əlaqələndirilmiş fəaliyyəti təşkil etməkdən ibarətdir. Bu fəaliyyət qanunlara ciddi riayət olunmaqla vəzifəli və məsul şəxslərin nəzarəti ilə həyata keçirilir.

2. İnformasiya azadlığı üzrə işlərin həyata keçirilməsi.

2.1. İnformasiyanın təqdim olunmalı olduğu hallar aşağıdakılardır:

2.1.1. İnformasiya əldə etmək haqqında qanunun tələblərinin həyata keçirilməsi;

2.1.2. Nazirliyin fəaliyyəti haqqında rüblük (illik) materialların dərci;

2.1.3. Fiziki və hüquqi şəxslər tərəfindən yazılı və elektron formada sorğu daxil olduqda;

2.1.4. Nazirliyin fəaliyyəti barədə ictimaiyyət üçün maraq doğuracağına kifayət qədər əsas olduqda;

2.1.5. Qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

3. Nazirliyin Aparatına daxil olan bölmələr və strukturuna daxil olan idarələr ayda iki dəfə (təqvim ayının 15-i və 30-dək) görülmüş işlər barədə;

4. Verilən materiallarda, məlumatlarda və müraciətlərə cavablarda qanunvericiliklə müəyyən edilmiş faktiki məlumatlar olmalı, sadə və anlaşılan olmalı və bir-birinə ziddiyət təşkil edən müddəalar olmamalıdır.

4.1. Ötürülən məlumatlar yığcam və konkret olmalıdır;
4.2. Yazılı şəkildə ötürülən məlumatlarda Azərbaycan dilinin orfoqrafik qaydalarına ciddi riayət edilməli, iki və ya daha çox mənada başa düşülə bilinəcək hallara yol verilməməlidir;
4.3. İctimaiyyətə yalnız açıq məlumatlar ötürülməli və onların tərkibində məxfi və konfidensial informasiya olmamalıdır.

5. Elektron formada daxil olan müraciətlərin sənədləşdirilməsi və qeydiyyatı:

5.1. Sorğunun növündən asılı olmayaraq bütün müraciətlər nömrə əsasında qeydiyyata alınmalıdır;
5.2. Daxil olan müraciət və ona verilmiş cavablar arxivləşdirilməli və ən azı bir il saxlanmalıdır.

6. İnternet informasiya ehtiyatında məlumatlar hadisə baş verdikdən ən geci üç gün müddətində yerləşdirilməlidir.